# Qəlbən vətənə bağlı insan

**İlqar MÜZƏFFƏROĞLU,**
**AJB-nin üzvü**

***Dönüb geriyə, ömür yoluna baxanda bəzən fəxrləndirici, bəzən də təəssüfləndirici günləri yada sala bilirsən. Geridə qoyduğun bu günlər gələcəyə addımladığın yolda güzgü vasitəsi ilə günəşdən alınan, işığın, kölgəyə saldığı şüaya bənzəyir. Həmin işıqla keçmişindəki hamar və ya nahamar, kələ-kötürlü yolu aydınlaşdıra bilərsən. Doğrudan doğruya hamar yolla gedib məqsədinə çatmaq istəyirsənsə zəhmət çəkib, zülm ayaqlamalısan. İynə ilə gor yox, yol qazmalısan. Aqillər demişkən: "İgid odur atdan düşə atlana, el yolunda hər zəhmətə qatlana".***

Azərbaycanımızın tarixində Böyük Azərbaycan qoruyucusu Şah İsmayıl Xətai, Müstəqil Azərbaycan Demokratik Respublikasının qurucularından olan Məmməd Əmin Rəsulzadə, Azərbaycan ədəbi mühitinin yaradıcılarından türkçü Üzeyir Hacıbəyli, Əhməd Cavad, Hüseyn Cavid kimi müasir ədəbiyyatımızın inkişafında zəhməti olan Barat Vüsal, Qərib Mehdi, Aydın Murovdağlı, Ramiz Rövşənin böyük xidmətləri var.

Müasir ədəbiyyatımıza müsbət mənada töhfə verən, Gəncə əbədi mühitinin yaradıcılarından olan öz tarixi yazıları ilə seçilən, ziyalı Mürsəl İrəvanlı da var idi.

***Təqdimat əvəzi:***

***Vergisi ulu Tanrı tərəfindən verilib Mürsəl İrəvanlıya.***

***Maraqlı adam idi həmsöhbət kimi.***

***Az-çox rast gəldiyimiz təvazökar müdriklərdən idi bu insan oğlu. Həlimliyi var, işıqlı siması var, ağayana hərəkətləri də öz yerində... Konkretliyi, dəqiqliyi var idi. Sözlərində çəki, kəlmələrində doğruluq var idi. Ən vacibi insan keyfiyyətlərinə malik idi bu dünyagörmüş kişi. Yeri gələndə duzlu-məzəli söhbətlərindən qalan deyildi. Düz söz deməkdən çəkinən deyildi. Elə buna görə də daxili ciddiliyi, mənəvi-ruhi intizamını heç vaxt pozulan deyil.***

***Mürsəl İrəvanlını yazılarda bizə belə tanıdıblar. Real həyatda da beləcə gördüm, beləcə tanıdım ağsaqqal yazarı... canlı tarixi...***

Bu fikirlərimi Mürsəl İrəvanlı barəsində hələ 2020-ci ildə Türküstan qəzetinin 8-14 dekabr sayında, yazarın yubiley ilində (80 yaşında) "Kim deyir ki, sənətkara qocalıq var?" başlıqlı yazımda göstərmişdim. Zəmanəmizin canlı arxivi, ensiklopedik biliyə malik olan Mürsəl İrəvanlı ilə görüşməli idik. Görüşdük də. Düzdür əvvəl onun barəsində yazmağıma etiraz etdi. Mənim təkidimdən sonra razılaşdı. Səhhətində bir az problem olduğunu hiss edirdim. Ömrü uzunu sinəsində sıxıb saxladığı, gecə-gündüz qayğısını çəkdiyi, oddan-soyuqdan qoruduğu, xalqına, vətəninə qırılmaz tellərlə bağlı olan qəlbi deyəsən ona "naxələflik" edirdi. Ağrısa da söhbətləşməyə imkan verdi. Söhbətarası zarafatlarından da qalmırdı. Ürəyi sözünə baxmasa da, heç vecinə almırdı bu ağrıacını...

Elə bu zarafatları ilə yanaşı XIV əsrin istedadlı, məhəbbət şairi Hafiz Şirazi ilə bağlı hadisədən, Moskva xatirələrindən, Moskvadakı tarixi şəxsiyyətlərdən danışdı.

Yadımdadır həmsöhbətim danışdıqca çöhrəsi gah yaz günəşi kimi açılır, gah da payız buludu kimi qaralırdı. Danışdıqca qayalara çırpılan dağ şəlaləsi kimi coşur, bəzən də böyük dənizin kiçik ləpələri kimi pıçıldayırdı. Belə haldan-hala düşməyinin səbəbini özü danışdıqca açıqlayırdı.

- Zəmanəsinə görə Hafiz Şirazi də mənim kimi həyat sürüb uşaqlıqdan yetim qalıb. Onun-bunun himayəsində böyüyüb, acınacaqlı həyat sürüb. Ancaq buna baxmayaraq xalqını çox sevib, daim onu düşünüb. Xalq yolunda canından keçməyə hazır olub. O, sözün həqiqi mənasında əsl vətəndaş kimi həyatda yaşayıb. Mənim də gün-güzəranım onunkuna bənzəyir. Elə bil altı əsrdən sonra yenidən dünyaya gəlib deyir: "Həmişə xalqın arasında ol, tariximizi keçmişimizi onlara anlat".

Mən də bu səsə qulaq asıram və həmişə də əhdimə sadiq qalacağam. Ölənə kimi... Öləndən sonra bəlkə xatırlandım. Bəlkə də kiməsə etdiyim xeyirxahlıq bir gün öz bəhrəsini verdi. – Mürsəl müəllim bu fikirləri ilə sanki gələcək nəsillərə öz vəsiyyətini edirdi.

Elə yazarlar var ki, zamanın, dövrün tələbləri ona öz qəlibinə salır, yaradıcılığını cılızlaşdırır, dünyagörüşünü məhdudlaşdırır. Mürsəl İrəvanlı üçünsə dövr, zaman məfhumu olmadı. Onun yaradıcılığı istənilən anda öz fikirlərini deyə bilirdi. Çünki kiminsə xoşuna gəlib, gəlməmək xatirinə yazıb yaratmadı.

- Mürsəl Həsən oğlu Rəfiyev 1940-cı il iyulun 7-də Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur. Uşaqlığı ikinci cahan müharibəsi illərinə düşdüyündən çox çətinliklərlə üzləşmişdir. Orta məktəbdə İrəvan şəhərində getmiş çətinliklərə baxmayaraq, məktəbi əla qiymətlərlə bitirmişdir. Təhsilini davam etdirmək üçün Moskvaya getmiş və orada M.Lomonosov adına Dövlət Universitetinin hüquq fakültəsinə daxil olaraq fərqlənmə diplomu ilə bitirmişdir. Universiteti bitirdikdən sonra Mürsəl Rəfiyev Qərbi Azərbaycanda hüquq sahəsində bir sıra vəzifələrdə çalışmaqla bərabər respublika radiosunda aparıcı, respublikada nəşr olunan qəzetlərdə müxbir kimi çalışmışdır. 1988-ci ildə baş verən məlum hadisələrlə əlaqədar olaraq minlərlə soydaşlarımız kimi Mürsəl İrəvanlı da erməni separatçıları tərəfindən doğma torpaqlarımızdan didərgin salınaraq, Gəncə şəhərində məskunlaşmışdır. Məskunlaşma dövründən sonra da əmək fəaliyyətini davam etdirmişdir.




**Soldan Mürsəl İrəvanlı, Ortada Qərib Mehdi, sağdan İlqar Müzəfferoğlu**

***Gəncə şəhərində bir sıra idarə və müəssisələrdə məsul vəzifələrdə çalışmaqla yanaşı həmçinin respublikamızda işıq üzü görən qəzet və jurnallarla ardıcıl əməkdaşlıq etmiş, müxtəlif dövrlərdə "Meridian", "Dövlətçilik", "Həmrəylik", "Azad söz" qəzetlərində redaktor, redaktor müavini, xüsusi müxbir vəzifələrini layiqincə yerinə yetirmişdir.***

***Mürsəl İrəvanlı müəllim kimi də şərəfli həyat yolu keçmişdir. Uzun müddət Gəncədə fəaliyyətdə olan Nizami Gəncəvi adına özəl universitetdə, Şuşa kənd təsərrüfatı texnikumunda, Gəncə Dövlət kollecində hüquq*** dərslərini tədris etmişdir.

Mürsəl İrəvanlı dövlət vəzifələrində çalışmasına baxmayaraq, yaradıcılığını da şərəflə davam etdirmişdi. Onun yazdığı "Ata qatili", "Onun qanı ürəyindədir", "Çay niyə səslənir", Axan qanın izi ilə" əsərləri rus, Ukrayna, Belarus, İngilis dillərinə tərcümə olunmuşdur. 1974-cü ildə Rusiyada nəşr etdirdiyi "Albalı çiçəyi" romanı M.Qorki adına mükafata layiq görülmüşdür. Rus dilində yazdığı mükəmməl əsərlərinə görə Mürsəl İrəvanlını 1963-cü ildən SSRİ Yazıçılar İttifaqına üzv seçmişdilər.

***Mürsəl İrəvanlı son illərdə müntəzəm olaraq "Türküstan", "Hürriyyət" qəzetlərində müxtəlif səpkidə yazıları ilə də çıxış edirdi. O, ömrünün sonuna qədər "Hüquq və səlahiyyət" qəzetinin baş redaktoru vəzifəsində çalışdı.***

***Mürsəl Həsən oğlu Rəfiyev (Mürsəl İrəvanlı) 2022-ci il may ayının 19-da 82 yaşında vəfat etmişdir.***

***Geniş qəlbə sahib olan, iti qələm sahibi, bir çox mükəmməl əsərlər yaradıcısı, Mürsəl İrəvanlı dostları tərəfindən həmişə yad ediləcək.***

***Allah rəhmət eləsin! Ruhu şad olsun!***